*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 226-233* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.226*

## XX əsrin 60-80-ci illərində Şəki – Naxçıvan və Gəncə teatr əlaqələri

**Kamil Adışirinov**
Filologiya elmləri doktoru, dosent
AMEA Şəki Regional Elmi Mərkəzi
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
E-mail: Kamil.adisirinov@mail.ru

**Annotasiya.** Məqalədə ilk dəfə olaraq XX əsrin 60-80-ci illərində Şəki – Naxçıvan və Gəncə teatr əlaqələri araşdırılır. Burada 72 il Şəkidə nəşr olunmuş “Şəki fəhləsi” qəzetinin səhifələrində 60-80-ci illərdə yer almış Şəki – Naxçıvan və Gəncə teatrlarının qarşılıqlı teatral əlaqələrinə dair materiallar əsas tədqiqat obyekti kimi götürülür. Aparılmış təhlillər sübut edir ki, teatrlararası qarşılıqlı əməkdaşlıq tamaşaçıların Azərbaycan və dünya dramaturgiyasının ən maraqlı nümunələri ilə hərtərəfli tanış olmalarına imkan yaratmış, həmin əsərlərin səhnə təcəssümü ədəbi-mədəni mühitin inkişafında mühüm amil olmuş, hər üç teatrın səhnəsində Azərbaycanın görkəmli səhnə ulduzları yetişmişlər. Məqalədə tarixi-xronoloji və tarixi-müqayisəli metodlardan istifadə olunmuşdur. Səhnə əsərlərinin dəyərləndirilməsində ideya-bədii təhlil üsulu əsas götürülmüş, tarixilik və müasirlik prinsiplərinə əməl edilmişdir. Region teatrı nümunəsində milli teatrın elmi tarixinə və onun zənginləşmə bazasına dəyər vermək tədqiqatın qarşısında duran mühüm vəzifələrdən olmuşdur.
Məqalənin yazılmasında məqsəd Şəki – Naxçıvan və Gəncə teatr əlaqələrinin öyrənilməmiş, qaranlıq səhifələrdə qalan tərəflərinə işıq salaraq bu teatrların qarşılıqlı fəaliyyəti ilə oxucuları tanış etməkdir. Azərbaycan mədəniyyətinin təcəssümündə və təbliğində Şuşa şəhəri ilə bir sırada dayanan Naxçıvan, Gəncə və Şəki şəhərlərinin teatral həyatını araşdırmaq, düşünürük ki, mədəniyyət tariximizin açılmamış qatlarına işıq salmaqla teatr tariximizi zənginləşdirmək deməkdir.
**Açar sözlər:** Şəki teatrı, Naxçıvan teatrı, Gəncə teatrı, aktyor, rejissor

**Məqalə tarixçəsi:** göndərilib – 25.02.2025; qəbul edilib – 13.03.2025

## Sheki-Nakhchivan and Ganja theater relations in the 60s-80s of the 20th century

**Kamil Adishirinov**
Doctor of Philological Sciences, Associate Professor
Sheki Regional Scientific Center of ANAS
Sheki Branch of the Azerbaijan State Pedagogical University
E-mail: Kamil.adisirinov@mail.ru

**Abstract.** In the article, for the first time, the theater relations between Sheki – Nakhivan and Ganja in the 60s-80s of the 20th century are investigated. The author takes as the main object of research the materials on the mutual theatrical relations of Shaki – Nakhchivan and Ganja theaters, which appeared in the 60s-80s in the pages of the newspaper “Sheki Fahlesi” published in Sheki for 72 years. The conducted analyzes prove that the mutual cooperation between theaters has created an opportunity for the audience to get acquainted with the most interesting examples of world and Azerbaijani drama, the stage embodiment of those works has become an important factor in the development of the literary and cultural environment, and prominent stage stars of Azerbaijan have grown up on the stage of all three theaters. Historical-chronological and historical-comparative methods were used in the article. The evaluation of stage works is based on the method of idea-artistic analysis, and the principles of historicity and modernity are followed. In the article, in the

example of the regional theater, giving value to the scientific history of the national theater and its enrichment base was one of the inevitable tasks facing the researcher.
The purpose of writing the article is to introduce readers to the interaction of these theaters by shedding light on the unstudied, dark pages of Sheki – Nakhchivan and Ganja theater relations. We think that exploring the theatrical life of the cities of Nakhchivan, Ganja and Sheki, which stand in line with the city of Shusha in the embodiment and promotion of Azerbaijani culture, means to enrich our theater history by shedding light on the undiscovered layers of our cultural history.
**Keywords:** Shaki theater, Nakhchivan theater, Ganja, actor, director

**Article history:** received – 25.02.2025; accepted − 13.03.2025

## Giriş / *Introduction*

Şəki – Naxçıvan və Gəncə ədəbi-mədəni əlaqələri tarixən zəngin olmuşdur. Bu qədim mədəniyyət diyarlarının elm və mədəniyyət xadimləri XII əsrdə, sonralar isə XIX əsrdə və XX əsrin əvvəllərində bir-birilə daha sıx mədəni əlaqələr yaradaraq dostluq etmişlər. Ərazilər arasında məsafə baxımından uzaqlıq, nəqliyyat məhdudluğu özünü göstərsə də, ziyalılar məktublaşma vasitəsilə bu mədəni münasibətləri tənzimləmişlər. Ədəbiyyat fədailəri olan alimlərimiz öz fundamental xarakterli əsərlərində bu əlaqələrdən ürəkdolusu söz açmışlar. Görkəmli akademik İsa Həbibbəylinin Rəşid bəy Əfəndizadənin Molla Məhəmməd Tağı Sidqi ilə dostluq əlaqələri barədə vermiş olduğu məlumat Naxçıvan – Şəki ədəbi-mədəni əlaqələrinin ədəbiyyat tariximiz üçün açılmamış qızıl səhifələri hesab oluna bilər. Hər iki sənətkarın ədəbi münasibətlərində məktubların böyük əhəmiyyət daşıdığını vurğulayan görkəmli ədəbiyyatşünas yazır: "Məktublar yazıçı və şairlərin ürək döyüntülərinin, qəlb çağırışlarının, əzab və sevinclərinin güzgüsüdür. Bunlarsız ədəbiyyat tarixini yazmaq, bədii yaradıcılıq və ədəbi mühiti doğru-düzgün canlandırmaq əslində çox çətindir" [2, s.350]. Bu qeydlərdən sonra görkəmli akademik Rəşid bəy Əfəndizadənin Molla Məhəmməd Tağı Sidqiyə yazmış olduğu iki məktubun məzmununu ilk dəfə olaraq oxuculara çatdırır. Böyük monoqrafik məzmun daşıyan "Cəlil Məmmədquluzadə və Naxçıvan teatrı" adlı yazısında görkəmli ədəbiyyatşünas Şəki və Naxçıvan teatrlarının mədəni əlaqələr və təsirlər məsələsini şərh etmişdir. Naxçıvan teatrının kim tərəfindən yaradılması ilə bağlı mübahisələrə son qoyan görkəmli akademik hökm olaraq yazır: "Naxçıvan teatrının yaradılması ideyası Eynəli Sultanova məxsusdur. İlk tamaşanın repertuarının müəyyənləşdirilməsində isə Cəlil Məmmədquluzadənin mühüm rolu olmuşdur. Cəlil Məmmədquluzadə Naxçıvan teatrının ilk rejissorlarından biridir. Mirzə Fətəli Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah", "Molla İbrahimxəlil kimyagər" tamaşalarında onun rejissorluq fəaliyyəti diqqəti cəlb etmişdir" [2, s.757-759].

## Əsas hissə / *Main Part*

Teatrşünas alimlərin əsərlərində bu üç nəhəng teatrın mədəni əlaqələrinə cüzi şəkildə toxunulsa da, Şəkinin nəinki ictimai-siyasi həyatında, həmçinin ədəbi-mədəni həyatında da mühüm rol oynamış "Şəki fəhləsi" qəzetinin səhifələrində Şəki – Naxçıvan və Gəncə teatr əlaqələrinin öyrənilməsi baxımından qiymətli materiallar dərc edilmişdir. Qəzetin XX əsrin 60-80-ci illərinin saylarında Naxçıvan və Gəncə teatrlarının Şəki qastrolları ilə bağlı maraqlı yazılar diqqətimizi çəkir. Bu mətbu orqanın 4 iyun 1970-ci il sayında dərc edilmiş "Şəkidə Naxçıvan Teatrının qastrolları" adlı yazıda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının Şəki, Zaqatala, Balakən, Vartaşen (indiki Oğuz), Şuşa rayon və şəhərlərinə ediləcək qastrol səfərlərindən söz açılır. Yazının müəllifi Sübhi Kəngərli iki aylıq teatr qastrollarının repertuarını açıqlayaraq yazır: "Bu ilki qastrol səfərimiz (1970-ci il nəzərdə

tutulur – K.A) üçün Şəki, Zaqatala, Balakən, Vartaşen və Şuşa rayonları nəzərdə tutulmuşdur. İki ay davam edəcək səfərimiz dövründə repertuarımızın gözəl əsərlərini tamaşaçılara göstərməyi qarşımıza məqsəd qoymuşuq. Bu əsərlər sırasında Qaldoninin *"Mehmanxana sahibəsi"*, Ş.Qurbanovun *"Sənsiz..."*, M.Şamxalovun *"Qaynana"*, Ə.Yusiflinin *"Səadət naminə"*, C.Cabbarlının *"Solğun çiçəklər"*, S.S.Axundovun *"Laçın yuvası"*, Ə.Yusifovun *"Məhəbbət abidəsi"*, Ü.Hacıbəyovun *"Məşədi İbad"*, S.Rüstəmin *"Beş manatlıq gəlin"* və S.Ələsgərovun *"Haradasan, ay subaylıq"* pyesləri vardır" [9]. Göründüyü kimi, teatrşünasın təqdim etdiyi əsərlər mövzu və janr etibarilə rəngarəng olub klassikliyi və tarixiliyi ilə diqqət çəkir. Heç də təsadüfi deyil ki, teatrın truppası ilk tamaşanı dahi Mirzə Fətəli Axundzadənin yurdu olan Şəkidə göstərməyi planlaşdırmışdır. Tamaşaçılara təqdim olunan ilk tamaşa S.Ələsgərovun "Haradasan, ay subaylıq" əsəri olmuşdur. "Şəki fəhləsi"nin 9 iyun 1970-ci il tarixli sayında dərc edilmiş "Sənətkarlıq nümunəsi" adlı tamaşaçı qeydlərində tamaşanın məzmun və məndəricəsi, rejissor və aktyor məharəti təqdir olunmuşdur. Müəllif Qurtuluş Süleymanlı təhlil-müqayisə müstəvisində olan yazısında öz məmnunluq hisslərini ifadə edərək yazır: "Tamaşaya (*"Haradasan, ay subaylıq"* tamaşası nəzərdə tutulur – K.A) baxarkən ilk olaraq S.Qədirzadənin "Kirpi" jurnalında dərc edilmiş *"Novruzqulu xoruz buraxır"* adlı satirik hekayəsini xatırlayırsan. Həmin hekayənin süjeti eyni ilə saxlanılmış, dramatik konflikti artırmaq məqsədi ilə buraya əlavələr verilmiş, nəhayət, məzmun genişləndirilmiş, hekayə səhnələşdirilərək teatr aləminə çıxarılmışdır" [8]. Tamaşaçı qeydlərində tamaşanın baş qəhrəmanı Novruzqulunun iç dünyasına, bir kadr kimi bacarıqsızlığına daha çox diqqət yetirilir. Müəllif yazır: "Tamaşanın əsas süjet xətti orkestrdə baritonda çalan Novruzqulunun başına gələn hadisələrlə əlaqədar inkişaf edir. Novruzqulu istedadsız, bacarığı və musiqi qabiliyyəti olmayan bir tipdir. Müəyyən səbəblər üzündən orkestrə gəlib düşmüşdür. Buna görə də orkestrdə çalarkən ciddi səhvlərə yol verir. Mayestro "xoruzburaxan" Novruzqulunu buradan uzaqlaşdırmağa çalışır. Novruzqulu öz razılığı ilə işdən çıxacağını mayestroya bildirir, təki ona əla xasiyyətnamə versinlər" [8]. Əsərin məzmunundan da aydın olur ki, Novruzqulu mənəviyyatca da çürük adamdır. O, üzvü olduğu orkestrin iştirakçısı, professorun həyat yoldaşı olmuş Gülyanağa məhəbbət yetirir. Onun bu yolda niyyəti saxta nikahla Gülyanağı ələ keçirib oğlu Əhmədağa üçün ayrılmış alimenti ələ keçirməkdir. Lakin Gülyanaq ağıllı qadındır. O, Novruzqulunun üç arvaddan sonra evlilik təklifini, hiylə işlədərək, onu ifşa etmək üçün razılıq hissi ilə qarşılayır.

Əsərdə quruluşçu rejissor əməyi diqqətçəkicidir. İstedadlı rejissor Vəli Babayev müəllifin fikirlərini reallıqla tamaşaçılara çatdırmış və Novruzqulunun ifşasına hədəflənmiş məqamları reallıqla canlandırmağı bacarmışdır. Novruzqulu rolunun ifaçısı İbrahim Məmmədov da tamaşaçı alqışlarını yaratdığı real görüntülərlə tamaşaçıya çatdırmağı bacarmışdır. Tamaşaçı Qurtuluş Süleymanlı tamaşanın aktyor heyətinin peşəkarlığını vurğulayaraq yazır: "Gülyanaq rolunu oynayan əməkdar artist Firuzə Əlixanovanın da oyunu tamaşaçıya xoş təsir bağışlayır...

Mayestro rolunun ifaçısı Qüdrət Səda əsərin müsbət obrazlarından biridir. Orkestrə rəhbərlik edən bu adam bütün tamaşa boyu diqqəti öz üzərində saxlayır. Əməkdar artist Mirhəsən Mirişli həmin surəti ləyaqətlə yaradır. O, işə vicdanla yanaşanların fəaliyyəti ilə yaxından maraqlanır. Tamaşada Nora (R.Cəfərxanova), Rəşid (Əməkdar artist Ə.Qardaşbəyli), Ayna (S.Hüseynova) oyunları öz təbiiliyi ilə tamaşaçıları qane edir" [8].

XX əsrin 70-ci illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrının Şəki səhnəsində göstərdiyi növbəti tamaşa Qaldoninin mövzusunu XVIII əsr Avropa həyatından götürdüyü *"Mehmanxana sahibəsi"* əsəri olmuşdur. Üç pərdədən ibarət olan həmin əsərdə insan psixologiyasının müxtəlif təzahürləri öz əksini tapmışdır. Tamaşanın uğuru barədə "Şəki fəhləsi" qəzetində tamaşaçı rəyləri dərc olunmuş, rejissor əməyi və aktyor oyunu təqdir edilmişdir. Şəkinin yaradıcı ziyalılarından olan Q.Süleymanlı və B.Mahmudov tərəfindən tamaşa ilə bağlı qəzetin səhifələrinə çıxarılmış *"Mehmanxana sahibəsi"* adlı qeydlər fikrimizin təsdiqidir. Yazının məzmunundan göründüyü ki, "əsərin əsas gülüş hədəfi senyor Markiz və senyor Kavalerdir. Xamxəyal və kütbeyin olan bu senyorlar öz ara-

larında Mirandalenanın onlara bəslədiyi məhəbbətlə fəxr edirlər. Onların hər ikisi Mirandalenaya zinət əşyaları bağışlamaq, müqabilində isə gözəl qızın təmiz, ləkəsiz qəlbini oğurlamaq istəyir. Lakin qız öz xidmətçisi Fabrisionu gizli atəşin eşqiylə sevir" [8].

Tamaşada mehmanxana sahibəsi Mirandalena öz gözəlliyi, mənəvi zənginliyi ilə daha çox yadda qalır. Hadisələrin əsas cərəyan etdiyi məkan onun sahibəsi olduğu mehmanxanadır. Mehmanxanada təsvir edilən insanlar cəmiyyətin müxtəlif təbəqələrini təmsil edirlər. Senyor Kavalerin mənən yoxsul bir adam olduğunu bilən vüqarlı qız Mirandalena onu ifşa etmək, gülünc vəziyyətə salmaq üçün yollar axtarır və buna nail olur. Tamaşaçı bu rolun mahir ifaçısı olan Əməkdar artist Zəroş Həmzəyevaya maraqlı oyununa görə sonsuz rəğbət hissi aşılayır. İstedadlı aktyorların peşəkar ifaçılığı ilə əsərin ideyası tamamilə tamaşaçılara çatdırılır. Azərbaycan SSR Əməkdar artisti Məmməd Quluyevin yaratdığı senyor Kavaler obrazı təbiiliyi və canlılığı ilə tamaşaçı alqışları ilə qarşılanır. O, senyor Kavalerin burjua əxlaqı daşıyıcısı kimi mənfi mənəvi keyfiyyətlərini ustalıqla tamaşaçılara təqdim edir. Tamaşanın sonunda qadını süst varlıq kimi təsəvvür edən senyor Kavaler məhz qadın hiyləsinin qarşısında ifşa olunaraq gülünc vəziyyətə salınır. Obrazların real canlandırılma tərzinə görə Azərbaycan SSR Xalq artisti Əyyub Haqverdiyev qraf rolunda və artist Aydın Şahsuvarov Markiz rolunda tamaşaçılar tərəfindən daha çox alqışlarla qarşılanırlar.

*"Mehmanxana sahibəsi"* əsəri Naxçıvan Teatrının aktyorları tərəfindən o qədər canlı ifa olunmuşdur ki, bu əsərin həmçinin Şəki Xalq Teatrında tamaşaya qoyulması arzuedilən olmuşdur.

1986-cı ilin iyul ayının 2-də C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrı Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının qonağı olmuşdur. Qəzetin səhifələrinə çıxarılan "Naxçıvan teatrı Şəkidə" başlıqlı yazıda qeyd olunduğu kimi, "Yaradıcı kollektiv (C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrının kollektivi nəzərdə tutulur – K.A) antik yunan ədəbiyyatının görkəmli nümayəndəsi Sofoklun ikihissəli "Elektra" faciəsini tamaşaçılara təqdim etmişdir. Teymur Elçinin tərcümə etdiyi həmin əsəri teatrın baş rejissoru, Azərbaycan SSR Əməkdar artisti Vaqif Əsədov hazırlamış, tamaşaya musiqini bəstəkar Cəmil Əmirov yazmış, rəsmlərin quruluşunu Respublika Dövlət Mükafatı laureatı Elçin Məmmədov vermişdir. İlk tamaşa teatrsevərlər tərəfindən bəyənilmiş, aktyorlardan – Azərbaycan SSR Xalq artisti Zemfira Əliyeva, Sofiya Hüseynova, respublikanın Əməkdar artisti Əkbər Qardaşbəyov, Oktay Quliyev, Əli Əliyev, İbrahim Səfiyev və başqalarının çıxışı alqışlarla qarşılanmışdır" [5].

Teatr 10 günlük qastrol səfərində Şəkiyə zəngin repertuarla gəlmiş, tamaşaların təkcə şəhər tamaşaçıları üçün deyil, rayonun kəndlərində də göstərilməsi planlaşdırılmışdır. Repertuara A.Dudarevin *"Astana"*, H.Cavidin *"Azər"*, Cəlil Məmmədquluzadənin *"Kişmiş oyunu"* və *"Kamança"* pyesləri əsasında hazırlanmış *"Keçmiş günlər"* tamaşaları da daxil edilmişdir. Tamaşası nəzərdə tutulan əsərlərin göstərilməsi ilə Şəki tamaşaçıları Naxçıvan teatrının görkəmli aktyorları olmuş Azərbaycan SSR Əməkdar artistləri Roza Cəfərxanovanın, İbrahim Məmmədovun, Naxçıvan MSSR-in Əməkdar artistləri Tamara Məmmədovanın, Tofiq Mövləvinin, Həsən Ağayevin, Müzəffər Səfərovun, Cəvahir Məmmədovanın, aktyorlar Nəzakət Quliyevanın və başqalarının sənətkarlıq qüdrəti ilə tanış olmaq imkanı əldə etmişlər.

XX əsrin 60-cı illərində Şəki Xalq Teatrının sıx mədəni əlaqə yaratdığı teatrlardan biri Kirovabad Dövlət Dram Teatrı olmuşdur. Apardığımız araşdırma sübut edir ki, "Lenin bayrağı" qəzetinin səhifələrinə bu iki teatrın mədəni əlaqələri ilə bağlı silsilə yazılar çıxarılmışdır. Uzun illər "Şəki fəhləsi" qəzetinin redaksiyasına rəhbərlik etmiş jurnalist-yazıçı Nizami Nəbiyevin Kirovabad (Gəncə) – Şəki teatr əlaqələri müstəvisində Şəki teatrında oynanılmış Mirzə İbrahimovun *"Kəndçi qızı"* əsəri ilə bağlı yazmış olduğu rəy böyük maraq doğurur. Əsərin tamaşasını izləyən müəllif mənfi və müsbət qütblərin səciyyəsini düzgün verərək cəmiyyətin inkişafını təmin edən, yaxud bu inkişafı ləngitməyə çalışan insanlarla oxucuları tanış edir. Müəllifin qeydlərinin müsbət qütbündə kəndçi qızı Bənövşə durur. O, sadəliyi ilə hamının hörmətini qazanmış bir mexanizatordur. Professor Mahmud Səfayi kimi təmizqəlbli bir insandan dərs alması onu daha da saflaşdırmışdır. O, tər-

biyəsi və yüksək mədəniyyəti sayəsində professorun arvadı Reyhan xanımın da hörmətini qazanmışdır. Lakin bu alicənab və yüksək mənəviyyata sahib olan qız professor Mahmud Səfayinin oğlu Vahid Səfayinin saxta məhəbbəti ilə üzləşir. Vahid Səfayi tarix fakültəsini zorla bitirib istehlak kooperasiyasında işə düzəlmiş ərköyün böyümüş çılğın təbiətli gəncdir.

Komediyanın mənfi qütbündə isə istehlak kooperasiyasının sədri Şəkərlinski durur. Öz postunu qorumaq üçün hər cür hiylələrə əl atmağı bacaran Şəkərlinski işlərinin axarını təmin etmək üçün Mahmud Səfayidən bir yerlipərəst kimi istifadə etmək fikrindədir. Dramaturq müxtəlif dramatik situasiyalardan istifadə edərək silinməz insan obrazları yaratmışdır. Əsərdə tamaşa içərisində tamaşanın verilməsi müəllifin ideyasının açılmasına müsbət təsir göstərir. Bənövşənin də rollarda yer aldığı xalq teatrının tamaşası göstərilir. Vahid səhnədə gördüyü aktrisaya – Nərgizə vurulur. Nizami Nəbiyev əsərin teatral quruluşu, personaj heyəti haqqında da maraqlı məlumat verərək qeyd edir ki, "tamaşada Bənövşə rolunu respublikanın Əməkdar artisti Sədayə Mustafayeva ifa edir. Sadə və mükəmməl ifaçı kimi aktrisa tamaşaçılar tərəfindən sevilir. Respublikanın Əməkdar artisti Ələddin Abbasov Vahid obrazını yaratmaq üçün çox əziyyət çəkmişdir.

Professor Mahmud Səfayinin rolunu respublikanın Xalq artisti İsmayıl Talıblı yerinə yetirir. Əsərdə Şəkərlinskinin rolunu ifa edən respublikanın Xalq artisti Məmməd Bürcəliyevdir. O, Şəkərlinskinin daxili təlatümlərini, rüşvət alması səhnəsini o qədər təbii canlandırır ki, tamaşaçı alqışlarından qulaq tutulur" [6]. Pula olan bağlılıq Şəkərlinskini o dərəcəyə çatdırıb ki, o, ailəsində baş vermiş xəyanətə qarşı belə çıxmır. O, Alışovu arvadı ilə bir yerdə gördükdə belə pul xatirinə susmağa məcbur olur. Bütün bunları Məmməd Bürcəliyev tamaşaçılarına ustalıqla çatdırmağı bacarır.

Şəkərlinskinin qəmqüsarı Alışov da istehlak kooperasiyasının gəmiricilərindəndir. Onun vəzifəsi rüşvət daşımaqdır. Bu tip ətrafında baş verənlərə o qədər laqeyddir ki, əsərdə yalnız bir cümlə ilə yadda qalır: "Nə deyirsiniz deyin, özümdən çıxan deyiləm". Səhnədə Alışov rolunun yaradıcısı Əməkdar artist Muxtar Avşarovdur. Tamaşada yaddaqalan obrazlar çoxdur. Aktyor Əli Rzayevin yaratdığı Rəşid, Əməkdar artist Sadıq Həsənzadənin yaratdığı Sarvan, respublikanın Xalq artisti Solmaz Orlinskayanın yaratdığı Nisə xanım, Zülfüqar Baratovun yaratdığı Aslan, Firuzə Bədirbəylinin yaratdığı Reyhan xanım peşəkar ifaçılıq məharətlərinə görə tamaşaçıları uzun müddət psixoloji təsirdə saxlayır.

Kirovabad (Gəncə) Dövlət Dram Teatrının Şəki Teatrının səhnəsində tamaşaya çıxardığı güclü əsərlərdən biri görkəmli dramaturq İlyas Əfəndiyevin *"Sən həmişə mənimləsən"* pyesi olmuşdur. Şəkili dramaturq Məmməd Çələbiyevin "Lenin bayrağı" qəzetinin 9 iyul 1965-ci il sayında bu maraqlı dram əsərinin səhnə təcəssümü ilə bağlı qeydləri böyük maraq doğurur. O yazır: "C.Cabbarlı adına "Qırmızı Əmək Bayrağı" ordenli Kirovabad (Gəncə) Dövlət Dram Teatrının yaradıcı kollektivi böyük əmək sərf edərək tamaşaçını həyəcanlandıran, onun mənəvi zövqünü oxşayan maraqlı tamaşa yarada bilmişdir" [1].

Əsərin mövzusu Böyük Vətən müharibəsinin yaratmış olduğu psixoloji sarsıntılara həsr olunmuşdur. Ərini cəbhədə itirən Nəzakət aclığın və kimsəsizliyin yaratmış olduğu vəziyyətlə barışaraq Fərəc adlı əyyaş və xaraktercə kobud olan bir insana ərə getmişdi. Fərəc ailəyə ayaq basdığı ilk gündən Nargiləyə ögey ata münasibəti bəsləyərək onun təlim-tərbiyəsi ilə məşğul olmur, qızın öz doğma ata evini onun başına dar edir. Vəziyyət o həddə çatır ki, doğma anası Nargiləyə ata evini tərk edib xalasıgildə yaşamağı tövsiyə edir. Nargilənin həyatının qorxulu günləri, anları başlayır. O, orta məktəbi yenicə bitirməsinə baxmayaraq, tək yaşayır. Öz doğma anasından belə pis münasibət görən biçarə gənc qız ali təhsil almaqdan da məhrum olaraq işləmək üçün Həsənzadəyə müraciət etməyə məcbur olur. Getdikcə onun qəlbində Həsənzadəyə qarşı sevgi hissləri baş qaldırır və onu sevməyə başlayır. Ancaq Həsənzadə şəhvət düşgünü olan bir insan deyildir. O, bu gənc qızın saf məhəbbətinin sonunu qayğıkeş bir ata kimi fikirləşir, müvazinətini itirməyərək ötəri hisslərin əsirinə çevrilmir. Respublikanın Əməkdar artisti Ələddin Abbasov Həsənzadə rolunu tamaşada məharətlə ifa edir. Obrazın daxili aləmini ən xırda təfərrüatlarına qədər açmağı bacarır. Həsənzadənin bütün hisslərini yaşamağı bacaran

təcrübəli aktyor rolda səbirli, təmkinli, qayğıkeş və təvazökar olmağı bacarır. Seyrçi Məmməd Çələbiyev çox doğru olaraq yazır ki, "Onun ifasında (aktyor Ələddin Abbasov nəzərdə tutulur – K.A) Həsənzadənin bütün müsbət keyfiyyətləri tamaşaçıya tam aydınlığı ilə çatır. Psixoloji anları yaşadarkən istedadlı aktyorun yerli-yerində olan hərəkətləri tamaşaçını valeh edir. Ə.Abbasovun ifadə tərzi, dilinin səlisliyi, səsinin poetik vüsəti tamaşaçıya xoş təsir bağışlayır" [1].

Tamaşada Nargilə rolunu Azərbaycan SSR Əməkdar artisti Sədayə Mustafayeva ifa etmiş, aktrisa Nargilənin təmiz eşqini, Həsənzadəyə olan məhəbbətini, milli qızlarımıza məxsus şuxluğunu, nəvazişini, bəzi məqamlarda şıltaqlığını təbii və inandırıcı şəkildə tələbkar tamaşaçılara çatdıra bilmişdir.

C.Cabbarlı adına "Qırmızı Əmək Bayrağı ordenli" Kirovabad Dövlət Dram Teatrının şəkili tamaşaçılarla növbəti görüşü dramaturq Abdulla Şərifin *"Xallı dağın qartalı"* əsəri ilə olmuşdur. Əsərin ideya istiqamətini düzgün müəyyənləşdirən yazıçı-dramaturq Lütfəli Həsənov və Hüseyn Rəsulov yazmışlar: "Dramaturq Abdulla Şərif əməksevərlik kimi ciddi və əhəmiyyətli problemi düzgün həll etmək üçün iki həyatı qarşı-qarşıya qoymuşdur. Birinci həyat Şəhlanın, Şahinin həyatıdır. Onların arzuları, əməlləri nə qədər gözəl, nə qədər fərəhlidir.

İkinci həyat Qeybullanın həyatıdır. Onun arzuları nə qədər dayaz, əməlləri isə nə qədər çirkindir" [3]. Əsərlə tanış olarkən görürük ki, Şəhla da, Şahin də əməksevər gənclərdir. Təmiz düşüncəyə malik olan bu gənclər qan düşməni olmalarına baxmayaraq, hadisələri düzgün anlayıb nəticə çıxarmağı bacarırlar. Dramaturq bu iki əməksevər insana qarşı Qeybulla obrazını qoyur. Qeybulla əməksevər deyil. Onun gözü atasının var-dövlətində, mirasındadır. Ata nəvazişilə, ata kölgəsində yaşamaq ona can verir. Ancaq bu kölgə çəkildikcə Qeybulla nazilir, cılızlaşır, miskinləşərək acınacaqlı hallara düşür. Əsərdə yer alan hər bir gəncin mənəviyyatını teatrın istedadlı aktyorları şəkili tamaşaçılara çatdırırlar. Azərbaycan SSR Əməkdar artisti Muxtar Avşarov Qeybullanın mənəvi boşluğunu bacarıqla açıb göstərir. Çox doğru olaraq dramaturq Qeybullanın düşdüyü vəziyyətdə atasını – Seyfullanı günahkar bilir. Çünki Seyfulla əməyin uşağın düzgün tərbiyəsindəki rolunu anlamayıb, onu əməksevər yetişdirməyib. Hətta ata oğluna heç bir zehni əmək sərf etmədən elmi ad verilməsi üçün də çalışır. Teatr tənqidçiləri düzgün qeyd edirlər ki, "artist Abbas Məmmədov bu tipin xarakterini olduğu kimi canlandıra bilmişdir. Tamaşada şəkili tamaşaçılar qarşısında Azərbaycan SSR Xalq artisti İsmayıl Talıblının, Gürcüstan SSR Əməkdar artisti Reyhan Tağıyevanın, Azərbaycan SSR Əməkdar artisti Sadıq Həsənzadənin və Məmməd Cəfərovun da çıxışları yaxşı təsir bağışlamışdır" [3]. Tamaşanın ümumi quruluşu göstərir ki, rejissor Həsən Ağayev və tərtibatçı rəssam Bəhram Əfəndiyev çox əmək sərf etmişlər. Buraya bəstəkar Ələkbər Tağıyevin ürəyəyatan, tamaşadakı ahənglə səsləşən musiqisini də əlavə etmək lazımdır.

XX əsrin 60-cı illərində Kirovabad (Gəncə) Dövlət Dram Teatrının Şəkidə tamaşaya təqdim etdiyi aktual mövzulu əsərlərdən biri görkəmli satirik yazıçı Seyfəddin Dağlının *"Adı sənin, dadı mənim"* komediyasıdır. Komediya həyatla səsləşən, əliəyriləri ifşa edən bir hadisəyə həsr edilmişdir. Əsərdəki hadisələr baş gülüş hədəfi olan Qəlyanalının ətrafında cərəyan edir. Qəlyanalı 77 nömrəli qəlyanaltının fəhləsidir. Arvadı Səbirə qəlyanaltıya müdirlik etməsinə baxmayaraq, Qəlyanalı onu evdən çölə buraxmır, müdirliyi özü edir. O, bufetçi Totuxla cibgirlik əlaqəsinə girərək müştəriləri aldadır. Hətta gələn nəzarətçiləri belə Qəlyanalı nəzakətlə, yağlı dilini işə salaraq yola verə bilir. Ancaq günlərin birində qəlyanaltını yoxlamağa gələn nəzarətçi lax çıxmır. Qəlyanalı onu nə qədər dilə tutsa, yeyib-içməyə dəvət etsə belə, onu yola gətirə bilmir. Nəfsinə hakim ola bilməyən Qəlyanalı qəlyanaltıdan yığdığı haram pullar hesabına özünə təzə ev tikdirmiş, "Volqa" maşını belə almışdır. Gözlərini qamaşdıran müftə pulların gəlhagəli Qəlyanalını yeni sevdaya salır. O, ailəsinə xəyanət edərək bir bərbər qadınla evlənmək fikrinə düşür. Ancaq qadın kəbinsiz yaşamaq istəmir. Bunun üçün yollar axtaran Qəlyanalı subay bənna Həmzəni yolundan çıxarıb onun adına ev tikdirdiyi kimi, onu saxta kəbin kəsdirməyə də razı salır. Təxmini qısa məzmununu diqqətə çatdırdığımız bu səhnə əsəri Kirovabad (Gəncə) Dövlət Dram Teatrı aktyorlarının ifasında daha canlı və maraqlı şəkildə tama-

şaçılara təqdim olunur. Qəlyanalının Yumşaqov, Totux və Həmzə kimi maymaqlardan istifadə edərək törətdiyi əməllərin adını onlara çıxarıb, dadını özü dadması gülüş sədaları ilə tamaşaçılara təqdim olunur. Görkəmli jurnalist-yazıçı Nizami Nəbiyev əsərin finalını səciyyələndirərək bekə yazır: “Hadisələr cərəyan etdikcə, səhnədə adamlar bir-biri ilə rastlaşdıqca məsələ aydınlaşır. Yumşaqov adına yazılmış avtomaşını dövlətə bağışlayır, Səbirə ərinin evlənməsindən xəbər tutaraq qəlyanaltıya sahiblik etməyə başlayır. Bənna Həmzə kəbin kəsdirdiyi Qəmzəni əldən buraxmır, onunla özü evlənir, adına yazılan mülkü isə uşaq bağçasına verir” [4].

Tamaşa ilə bağlı “Lenin bayrağı” qəzetində yer almış qeydlərdə göstərilir ki, “Qəlyanalı rolunu ifa edən respublikanın Əməkdar artisti Muxtar Avşarov çox bacarıqla çıxış edir. Avşarov səhnədə şəkildən-şəklə düşərək müxtəlif görkəm alır. Gah diz çöküb qadına, nəzarətçiyə yalvarır, gah bənna Həmzənin qılığına girir. Bu yalvarışlar baş tutmayanda hədə-qorxu gəlir. Bütün bu xüsusiyyətləri Avşarov tamaşaçıya bacarıqla çatdırır. Onun danışığı, hərəkəti, mimikası hadisələrlə həmahəngdir” [4]. Tamaşaçı hiss edir ki, Həmzə rolunu ifa edən Azərbaycan SSR Əməkdar artisti M.Cəfərovun, Səbirə rolunu oynayan artist A.Əsgərovanın, Totux rolunu oynayan N.Rzayevanın, Qəmzə rolunu oynayan Azərbaycan SSR Xalq artisti M.Cəfərovanın, Yumşaqov rolunu oynayan Ə.Məmmədovun danışığı və səhnə mədəniyyətində heç bir çatışmazlıq yoxdur.

## Nəticə / *Conclusion*

Tədqiqatın nəticələri sübut edir ki, Şəki teatrı teatrlararası mədəni əlaqələr kontekstində maraqlı bir tarixi inkişaf yolu keçmiş, digər respublikadaxili və xarici teatrlarla yanaşı, Naxçıvan və Gəncə (Kirovabad) teatrı ilə də mədəni əlaqələr qurmuşdur. Yekun olaraq aşağıdakı nəticələri əhəmiyyətli hesab edirik:

– Hər üç teatrın repertuar məzmunu Azərbaycan və dünya dramaturgiyasının ən maraqlı nümunələrinin öyrənilməsi üçün inteqrativlik baxımından stimul rolunu oynayır;

– Qastrollar, teatrın səhnəsinə çıxarılan dram əsərlərinin janr müxtəlifliyi və üslubi xüsusiyyətləri teatr tənqidində nəzəri məsələlərin təkmilləşməsinə imkan yaradır;

– Göstərilmiş tamaşalar hər üç teatrın yetişdirdiyi tanınmış aktyor və rejissorların ömür və sənət yolunun ortaya qoyulmasını labud etmişdir.

Ümumiyyətlə, məqalə Şəki – Naxçıvan və Gəncə teatlarının fəaliyyəti fonunda teatr həyatinin – rejissor və aktyorların üslub, janr və forma axtarışlarını, aktyorların sənət statusunu, onların səhnə mədəniyyəti və ifaçılıq məharətini, bu sahəyə teatrşünas və ədəbiyyatşünas alimlərin vermiş olduğu dəyəri, sənət estetikasının tələblərinə hər üç teatrın səhnəsində nə səviyyədə əməl olunmasını, qastrol səfərlərinin məzmun və dəyər məsələlərini təhlil müstəvisinə çıxarmağa əsaslı zəmin yaradır.

## Ədəbiyyat / *References*


1. Çələbiyev, M.M. Sən həmişə mənimləsən. “Lenin bayrağı”, 9 iyul 1965.
2. Həbibbəyli, İsa. Nuhçıxandan – Naxçıvana. – Bakı: Elm və təhsil, 2015
3. Həsənov, L., Rəsulov, H. “Xallı dağın qartalı”. “Lenin bayrağı”, 14 iyul 1965.
4. Məmmədov, N., Nəbiyev, N. “Adı sənin, dadı mənim”. “Lenin bayrağı”, 28 iyul 1965.
5. Naxçıvan teatrı Şəkidə. “Şəki fəhləsi”, 5 iyul 1986.
6. Nəbiyev, N. “Kəndçi qızı”. “Lenin bayrağı”, 7 iyul 1965.
7. Sübhi Kəngərli. Şəkidə Naxçıvan teatrının qastrolları. “Şəki fəhləsi”, 4 iyun 1970.
8. Süleymanlı, Q., Mahmudov, B. “Mehmanxana sahibəsi”. “Şəki fəhləsi”, 16 iyun 1970.
9. Süleymanlı, Q. Sənətkarlıq nümunəsi. “Şəki fəhləsi”, 9 iyun 1970.

## Театральные связи Шеки, Нахчывана и Гянджи в 60-80-е годы XX века

**Камиль Адиширинов**
Доктор филологических наук, доцент
Шекинский региональный научный центр НАНА
Шекинский филиал Азербайджанского государственного педагогического университета
E-mail: Kamil.adisirinov@mail.ru

**Резюме.** В статье впервые исследуются театральные связи Шеки, Нахчывана и Гянджи в 60-80-е гг. XX века. Основным объектом исследования автора являются на страницах издававшейся в Шеки на протяжении 72 лет газеты “Шеки фехлеси” в 60-80 годах материалы о театральных взаимосвязях Шекинского, Нахчыванского и Гянджинского театров. Проведённый анализ подтверждает, что совместное театральное взаимодействие дало возможность всесторонне ознакомить зрителей с самыми интересными образцами мировой и азербайджанской драматургии, сценическое воплощение этих произведений послужило важным фактором развития литературно-культурной среды, формированию в стенах трёх театров видных мастеров сцены Азербайджана. В статье использовались историко-хронологический и историко-сопоставительный методы. При оценке драматургических произведений за основу был принят идейно-художественный метод анализа с использованием принципов историзма и современности. Перед автором статьи стояла непременная задача оценки научной истории и обогащения базы национального театра на примере региональных театров.
Целью написания статьи было пролить свет на неизученные, неясные страницы театральных связей Шеки, Нахчывана и Гянджи, ознакомить читателей с активной взаимной деятельностью этих театров. Считаем, что в воплощении и популяризации азербайджанской культуры изучение театральной жизни города Шуша и стоящих с ним в одном ряду городов Нахчыван, Гянджа и Шеки означает обогащение нашей театральной истории проливая свет на неоткрытые пласты истории нашей культуры и театра.
**Ключевые слова:** Шекинский театр, Нахчыванский театр, Гянджинский театр, актёр, режиссёр